AZƏRBAYCAN UNİVERSİTETİ

# ŞƏHİDLƏR ÖLMÜR

Aprel şəhidi Fəxrəddin Qurbanlının
əziz xatirəsinə həsr olunur







Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üç rəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!
Azərbaycan! Azərbaycan!

*Sözləri: Əhməd Cavad*
*Musiqisi: Üzeyir Hacıbəyli*



Aprel şəhidi Fəxrəddin Qurbanlı

Qurbanlı Fəxrəddin Seyfəddin oğlu 1994-cü ildə Bakı şəhərinin Binəqədi rayonunda anadan olub. Qorxmaz Baxşıyev adına 179 nömrəli tam orta məktəbi bitirib.
2011-ci ildə Azərbaycan Universitetinin Sosial iş ixtisasına qəbul olub. Əlaçı və nümunəvi tələbə olub. "Hüquq Dünyası" Hüquqi Təbliğat İctimai Birliyi, "SOS" Uşaq Kəndləri, UAFA (United Aid For Azerbaijan - Azərbaycana birgə yardım) kimi təşkilat və layihələrdə könüllü kimi işləyib.
2015-ci ildə Sosial iş fakültəsindən üçüncülüklə məzun olub. Həmin ilin iyul ayında hərbi xidmətə yollanıb.
2016-cı il aprel ayının ilk günlərində cəbhə xəttinin Tərtər istiqamətində erməni hərbi birləşmələrinin təxribatının qarşısını alarkən şəhid olub. Sabunçu rayon Pirşağı qəsəbəsindəki kənd qəbirstanlığında dəfn edilib. Ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunub.

**Şəhid Fəxrəddin Qurbanlı adına təqaüd**

Azərbaycan Universiteti tərəfindən 2016-cı ildə "Şəhid Fəxrəddin Qurbanlı adına təqaüd" təsis olunub. Təqaüd 2016/2017-ci tədris ilindən etibarən birinci tədris ilinin birinci semestrində universitetə ən yüksək balla qəbul olmuş tələbəyə verilir. Təqaüdün ümumi məbləği 500 manat təşkil edir.



## Aygün Musayeva

### Müəllimi

Azərbaycan Universitetində 2013-cü ildə pedaqoji fəaliyyətə başlayanda ilk dəfə Fəxrəddinin oxuduğu 112813 saylı qrupa dərs demişəm. Yadıma Fəxrəddinlə bağlı ancaq xoş xatirələr düşür. Çünki, tərbiyəli, əxlaqlı, dürüst və istiqanlı idi.

2016-cı ilin aprel ayının ilk günləri idi. O zamanlar İqtisadiyyat və idarəetmə fakültəsinin dekan müavini Vüqar Bağırlı gəlib Fəxrəddinin şəhid olması xəbərini deyəndə inana bilmədik, sarsıldıq. Bütün universitet bu xəbərin ağırlığından çökmüşdü. O sarsıntının təsirini hadisənin üzərindən 2 il keçməsinə baxmayaraq hələ də hiss edirik.

Universitet divarından Fəxrəddinin xatirəsinə asılmış şəklin qarşısından hər dəfə keçəndə gözüm qeyri-ixtiyari onun gözləri ilə toqquşurdu və hər dəfə də tez gözümü ondan çəkirdim. Elə bil bununla hər dəfə özümü inandırmağa çalışırdım ki, o, ölməyib.

Qəribədir, Fəxrəddin sanki beynimin hansısa hissəsində qalıb və özüm də gözləmədiyim anlarda ağlımdan keçir. Unutmaq çətindir!

**Allah rəhmət eləsin!**



## Könül Əfəndiyeva

### Müəllimi

Fəxrəddin Qurbanlı yaddaşıma dərin iz salan tələbələrimdən olub. Onun haqqında çox söz demək olar. Çox mədəni və nümunəvi tələbə idi. Bütün müəllimlər, eləcə də tələbə yoldaşları onun xətrini çox istəyirdi. Davranışı ilə hamının sevgisini və hörmətini qazanmışdı.

Onu itirmək bizi çox sarsıtdı. Fəxrəddin Vətən yolunda canından keçdi, şəhidlik zirvəsinə ucaldı. Şəhidlərsə, ölməzdir. Biz onu heç vaxt unutmayacağıq!

**Ruhu şad olsun!**



## Sara Ağayeva

### Müəllimi

Fəxrəddinlə bağlı çoxlu xoş xatirələrim var. Çalışqanlığı, yeni biliklər əldə etməyə cəhd etməsi, məsuliyyəti ilə daim seçilib.

Fəxrəddin və qrup yoldaşları həm dörd illik universitet həyatı boyunca, həm də ondan sonrakı dövrdə mənim üçün sadəcə tələbə statusunda olmayıblar, onlar eyni zamanda mənim dostum olublar.

Fəxrəddinlə sonuncu dəfə 2016-cı ilin yanvar ayında - hərbi xidmətdən məzuniyyətə gələn zaman telefonda danışmışdım. Bir xeyli söhbət etdikdən sonra əsgərlikdə oxumaq üçün məndən bədii kitablar istəmiş, şəhərdə olmadığım üçün kitabları qardaşım aparmışdı. Kitabları götürdükdən sonra yenidən zəng etmiş və görüşə bilməməyimizdən gileylənmişdi.

Heç unutmuram, mən də ona demişdim ki, nə qalıb iyunda hamınız gəlirsiniz, görüşərik.

Şəhid olduğu xəbərini eşidəndən sonra kitabları özüm aparmadığım üçün çox təəssüflənirəm.

Fəxrəddin, əzizim, sən daim mənim üçün ən sevimli tələbəm, dostum olaraq qalacaqsan!

**Ruhun şad olsun, Şəhidim!**



## Tamerlan Rəcəbov

### Müəllimi

İndiki kimi xatırlayıram, statistika dərsimizin birində “bootstrap” (butstrap) metodu barədə danışanda bu termin Fəxrəddinin xoşuna elə gəlmişdi ki, dərs çərçivəsində lideri olduğu kiçik qrupun adını ilin sonunadək “butstrap” qoymuşdu.

Fəxrəddinə dərs dediyim iki semestrlik müddətdə həmişə qrupunun təbii lideri olub. Tələbə yoldaşları çəkinərək deyə bilmədikləri şəxsi problemlərini mənə Fəxrəddinin köməkliyi ilə çatdırırdılar. O tələbə yoldaşlarının səsi idi və bunu ürəklə edirdi.

Fəxrəddinin bizi belə tez tərk etməsi mənə sözlə ifadə olunmayacaq dərəcədə çətindir. O bizim yaddaşlarımızda mərdliyi, səmimiliyi, zəhmətkeşliyi və dürüstlüyü ilə tanınan yüksək keyfiyyətlərə malik bir insan kimi qalacaq.

Nə yaxşı ki, səni tanımışam Fəxrəddin, nə yaxşı ki, sənin müəllimin olmuşam!

**Ruhun şad olsun!**



## Cavid Şahmalıyev

### Müəllimi

Fəxrəddin sadə, səmimi və nümunəvi tələbə olub. Hər kəsə qarşı çox nəzakətli idi. Aramızdan belə tez gedəcəyi heç vaxt ağlıma gəlməzdi.

Onun xüsusi qayğıya ehtiyacı olan insanlara kömək etmək kimi potensialı var idi. Məhz bu xüsusiyyətinə görə mən onu gələcəyin peşəkar sosial işçisi kimi görürdüm.

Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən mübarizədə şəhid olması onun vətənini, xalqını nə qədər çox sevdiyini göstərir. O, qəhrəmanlığı ilə Azərbaycanda ilk şəhid sosial işçi kimi tarixə düşdü.

**Allah rəhmət eləsin!**



# Tünzalə Verdiyeva

## Müəllimi

Fəxrəddin öz davranışları ilə ailəsinin və müəllimlərinin fəxri idi. Şəhidlik zirvəsinə yüksəlməklə bütün Azərbaycanın fəxrinə çevrildi, adı kimi...
Bu zirvəyə onu daşıyan aldığı tərbiyə, vətənə olan sevgi, eyni zamanda, düşmənə bəslədiyi böyük nifrət və qəzəb idi. İşğal altında olan torpaqlarımızın düşmən tapdağından azad ediməsi onun ən böyük arzusu idi.
Universitetə qəbul olmaqla ailəsinə ən böyük sevinci yaşadan Fəxrəddin qısa müddətdə həm müəllimlərinin, həm də qrup yoldaşlarının hörmətini qazanmışdı. Qrup nümayəndəsi kimi həmyaşıdlarına həmişə müsbət nümunə oldu. Hamı onu intizamlı, ağıllı, və məsuliyyətli tələbə kimi tanıyırdı. Dərslərini yaxşı oxumaqla yanaşı universitetin ictimai həyatında, mədəni-kütləvi tədbirlərdə fəal iştirak edirdi. Sosial iş ixtisasında təhsil aldığına görə, bu sahədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarında könüllü kimi çalışır və tələbələri də könüllülük fəaliyyətinə təşviq edirdi.

Mən onlara 4 fəndən dərs deyirdim. “Qaçqın və məcburi köçkünlər ilə sosial iş” fənninə xüsusi marağı var idi. Müzakirələrdə fəal iştirak edir, sual verməyi, fikir mübadiləsi aparmağı çox sevirdi. Fikirləri, düşüncələri yaşından böyük idi. Vaxtından əvvəl müdrikləşmişdi. Qrupda yaşca hamıdan kiçik olsa da, tələbə yoldaşları onu “rəhbər”, “lider” kimi qəbul edirdi.

Tələbəm haqqında xatirə yazmaq olduqca çətindir. Onun yoxluğunu qəbul etmək və bu fikrə alışmaq valideynləri qədər müəllimləri üçün də ağırdır. Mənə elə gəlir ki, şəhid olmağı Fəxrəddin özü arzulayırdı, bu onun seçimi idi!

**Ruhu şad olsun!**



## Fidan Yusifova

### Müəllimi

Fəxrəddin mənim ən sevimli tələbələrimdən olub. Hər zaman savadı, bacarığı, məsuliyyəti ilə fəqlənib. Dərs dediyim 2 il müddətində onun yüksək mədəniyyətinin və tərbiyəsinin şahidi olmuşam.

Dərslərdə hər zaman ön sırada əyləşir, müzakirələrdə fəal iştirak edirdi.

Bir dəfə lap arxada əyləşmişdi. “Fəxrəddin, orda niyə oturmusan?” dedim, başını aşağı saldı, üzü qızardı. Onun təbiəti belə idi. Probleminin olduğunu anladım, üstünü vurmadım.

Şəhid olması haqqında xəbəri eşidəndə bir müddət özümə gələ bilmədim. İnana bilmirdim. Fəxr edirəm ki, onun kimi tələbəmiz olub. Ömrümün sonuna kimi daim hörmətlə xatırlayacam.

**Yeri nurla dolsun!**



## Nihat Vəlizadə

### Tələbə yoldaşı

Fəxrəddin bizim qrupda xasiyyət baxımından ən gözəl uşaq idi. Dərslərə çox məsuliyyətli yanaşırdı, universitetin daxili əlaçı təqaüdünü alırdı və Sosial iş fakültəsindən üçüncülüklə məzun olmuşdu.

Şəhid olması barədə xəbəri hərbi xidmətdən qayıdanda öyrəndim. O gün bu gündür ki, inana bilmirəm. Hər gün gördüyüm, söhbət etdiyim qrup yoldaşımın facebook səhifəsində “Allah rəhmət eləsin” yazısını görmək ürəyimi təsvir edə bilmədiyim dərəcədə çox sıxır.

Fəxrəddin ölməyib!

**Öz ölümü ilə əbədi ölümsüzlük qazanıb!**



## Yüksəl Babayev

### Tələbə yoldaşı

Fəxrəddin! Yaxşı dost, gözəl insan!

Bir insanda ola biləcək bütün müsbət və gözəl xüsusiyyətlər deyə bilərəm ki, Fəxrəddində cəmləşmişdi. Onu xatırlayanda insanın üzü gülür. Yardımsevərliyi, cəsurluğu, dürüstlüyü ilə fərqlənirdi. Gözübağlı, tərəddüdsüz ona güvənəcəyimizi bilirdik.

Fəxrəddin ona verilmiş ömür payını bizim dinc yaşamağımız üçün bağışlayaraq vətənə xidmət yolunda şəhidlik zirvəsinə ucaldı. Sübut etdi ki, vətən və torpaq sevgisi hər şeyin fövqündə dayanır. Bu isə hər kəsə qismət olmur. Çünki şəhidlik adi ölüm deyil.

O, özünün müqəddəs statusu ilə gələcək nəsillərə dayaq və nümunə olacaq!

**Yerin behişt, qəbrin nurlu olsun, qardaş!**



## Şahin Xəlilov

### Tələbə yoldaşı

Aprel döyüşləri zamanı sursat yükləyirdik. Əsgər yoldaşım Zülfüqar gəlib dedi ki, qardaşım Ülvinin qrup yoldaşı şəhid olub. Adını eşidəndə dərindən sarsıldım. Düzdür, Fəxrəddinlə o qədər yaxın deyildik. Amma tez-tez universitetin dəhlizlərində qarşılaşırdıq. Əlində ya jurnal olardı, ya da hansısa sənəd. Aramızda ikimizə məxsus zarafatımız var idi, “yenə sən? get gir dərsə də, bəsdi də”.

Güləruz, mehriban, gələcəyə dair məqsədyönlü tələbə idi. Hər dəfə şəklinə, videolarına baxanda kövrəlirəm...

O, hər kəsə nəsib olmayan zirvəyə, vətən sevgisinin ən uca zirvəsinə - şəhidlik zirvəsinə yüksəlib.

**Yerin Cənnət olsun, qardaş!**

# VƏTƏN QARTALI

*Necə də susqundur sənin baxışın,*
*Sükuta qərq olub gözlərin, ana!*
*Bir vaxt sevincindən axan göz yaşın,*
*Donub gözlərində yük olub sənə.*

*İndi ürəyinə dolub qəm, kədər,*
*Həyat alt-üst olub gözündə sənin.*
*Bir vaxt sevinərdin dünyalar qədər*
*Kədər mürgüləyir üzündə bu gün.*

*Qəm yemə, ay ana, şəhidlər ölməz*
*Vətən səmasında nur, günəşəm mən.*
*Günəşi ki heç kim söndürə bilməz!?*
*Düşməni yandıran qor, atəşəm mən.*

*Ana torpağımın bölünməzliyi*
*Ən uca, müqəddəs amalım olub.*
*Könlümə öyrədən bu dönməzliyi*
*Bir şirin Qarabağ vüsalım olub.*

*Mən vətən oğluyam, vətən qartalı*
*Qartal ki, zirvədən heç zaman enməz.*
*Başının üstündən qaranlıqları*
*Yox etdim, o zülmət bir daha dönməz.*

*Ay ana, ağlama, qəlbimi üzmə*
*Ovcunda dualar bilirəm sönməz.*
*Kükrə, Azərbaycan, bu dərdə dözmə!*
*Yoxsa köksündəki yaralar dinməz.*

*Qoy, səngərlər aşsın mübarizliyin*
*Oğullar, torpağı biz azad edək.*
*Düşmən dərk eylədi öz acizliyin*
*Ruhumuz sizinlə, irəli gedək!*

**Reyhan Mənəfova**
Azərbaycan Universiteti
Magistratura tələbəsi


Sevda


FƏXRİ QAROVUL


ŞƏHİD
QURBANLI
FƏXRƏDDİN
SEYFƏDDİN OĞLU
13.01.1994-09.04.2016
ƏRBAYCAN UNİVERSİTETİ
BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ
LLAH RƏHMƏT ELƏSİN

www.au.edu.az

© Azərbaycan Universiteti, 2018